# Azərbaycan Gürcüstan iqtisadiyyatına 3,2 milyard dollar investisiya yatırıb

*"Ötən il Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsi artaraq 580 milyon dollara çatıb. 700-dən çox Azərbaycan şirkəti Gürcüstanda uğurlu fəaliyyət göstərir. Azərbaycanda 300-dən artıq Gürcüstan şirkəti çalışır. İndiyədək Azərbaycandan Gürcüstana 3,2 milyard dollar investisiya yatırılıb və Azərbaycan şirkətləri qonşu ölkədə əsas vergi ödəyicilərindəndir".*



Bu fikirləri Azərbaycanda səfərdə olan Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri Natiya Turnavanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə İqtisadiyyat naziri Şahin Mustafayev söyləyib. Nazir vurğulayıb ki, qonşu və dost Gürcüstanla əlaqələr bütün sahələrdə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycanla Gürcüstan beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edirlər. İqtisadi əlaqələrdən danışan Şahin Mustafayev vurğulayıb ki, ölkəmiz Gürcüstanla əməkdaşlığın inkişafına böyük önəm verir və iki ölkə münasibətlərinin bütün istiqamətlərdə inkişafında maraqlıdır. Gürcüstan Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan enerji və nəqliyyat layihələrində fəal iştirak etməklə regional əməkdaşlığa töhfə verir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, "Cənub qaz dəhlizi" kimi enerji, Bakı-Tbilisi-Qars kimi qlobal əhəmiyyətli nəqliyyat layihələri bunun mühüm göstəriciləridir. İqtisadi-ticarət əlaqələrinin inkişafı ikitərəfli münasibətlərin əsas prioritetlərindəndir.

İki ölkə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Cənub-Qərb və digər beynəlxalq tranzit dəhlizlərinin inkişafında fəal əməkdaşlıq edir. Səmərəli əməkdaşlığın nəticəsidir ki, Azərbaycan və Gürcüstan ərazisindən keçən tranzit yükdaşımaların həcmi çoxalır və birgə tədbirlərin həyata keçirilməsi yükdaşımaları daha da artıra bilər.

Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri Natiya Turnava bildirib ki, Azərbaycan regionda və dünyada nüfuzlu dövlətdir və ölkəsi Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır. Natiya Turnava Azərbaycanın Gürcüstanla mühüm əhəmiyyətli regional və qlobal layihələrdə birgə iştirakını, Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına irihəcmli investisiyaların yatırıldığını qeyd edib. Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri qarşılıqlı sərmayə qoyuluşları üçün böyük potensialın olduğunu vurğulayıb, Azərbaycan şirkətlərinin Gürcüstanda həyata keçirilən layihələrdə iştirakı üçün imkanları diqqətə çatdırıb, iqtisadi-ticarət əməkdaşlığının inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb.

Görüşdə ticarət, o cümlədən Azərbaycanın sənaye məhsullarının Gürcüstan bazarına daha geniş çeşiddə və həcmdə çıxarılması, qarşılıqlı investisiya qoyuluşu, birgə müəssisələrin yaradılması, kiçik və orta biznes subyektləri arasında əlaqələr, nəqliyyat-tranzit, alternativ və bərpa olunan enerji, turizmin təşviqi və müştərək turizm marşrutlarının yaradılması, biznes forum və işgüzar görüşlərin təşkili və s. məsələlər müzakirə olunub.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

**Azərbaycan.- 2019.- 18 sentyabr.- S. 3**